**Azərbaycan Milli Elmlər Akademiyası**

**Elm Tarixi İnstitutu**

**Elm Tarixi və Elmşünaslıq (Beynəlxalq elmi-nəzəri jurnal)**

# "AZƏRBAYCANIN ELM VƏ MƏDƏNİYYƏT MƏRKƏZİ–ŞUŞA" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI

**06 may 2022**

**Emil Raul oğlu Ağayev**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
"İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasının müəllimi

## Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətində zəfər dastanı

**Giriş.** Dünya xalqlarının tarix boyu öz ərazilərini qorumaq uğrunda mübarizəsi mühüm mərhələ təşkil etmişdir. Vətənin müdafiəsi üçün aparılan mübarizələr, qəhrəmanların göstərdikləri şücaətlər həmin ölkənin tarixinə qızıl hərflərlə yazılaraq, yaddaşlarda qalır. Azərbaycan tarixində müharibələrə şahidlik edən ölkələrdən biri olmuşdur. Ölkəmiz 90-cı illərdə müstəqillik qazandıqdan sonra torpaqlarının itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Qarabağı işğal edən ermənistan dini, memarlıq abidələrimizi məhv edərək 30 il ərzində davam edirdi. 2020-ci il 27 sentyabr tarixində ermənistanın növbəti dəfə atəşkəsi pozması nəticəsində ordumuz əks hücuma keçdi. 44 gün ərzində kənd, qəsəbə, şəhərləri azad edərək, Zəfər bayrağını 2020-ci il 8 noyabr tarixində Şuşada ucaltdılar.[3] Bu qələbə işğalçı ermənistanı məğlub edən ordumuzun nəsillərdən-nəsillərə ötürüləcək dastana çevrildi. İncəsənətin cəmiyyət, tarixdə baş verən hadisələrlə sıx bağlı olduğunu nəzərə alsaq, Qarabağda qazandığımız Zəfərə də rəssamlarımız yaradıcılığında geniş yer ayırmışdılar. [1,s 6]

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətində rəssamlarımız tərəfindən Zəfər mövzusuna yeni nəfəs gətirdilər. Nigar Nərimanbəyova "Qarabağın Madonnası" (ill 1)əsərində tarixi torpağımızın gözəlliklərinə səyahət etdirir. İntibah dövrünə xas olan madonna təsvirlərinə sadiq qalan rəssam ana öz körpəsi ilə süjetini əsas götürmüşdü. Nağılvari rəng qamması, memarlıq və xarıbülbül isə Qarabağ əfsanəsini tamamlayır.



**İll 1. Nigar Nərimanbəyova "Qarabağın madonnası" (2021) (kətan, yağlı boya, 91x71sm)**

Ordumuz işğalda olan torpaqlarımızı azad etmək üçün dəmir yumruq kimi birləşdilər. Eldar Qurbanov "Marş irəli" (ill 2) əsərində tank, təyyarələr arasından güc simvolu sayılan atın üzərində əyləşən qəhrəman döyüşçü düşmən üzərinə hücuma keçir. Qılınc, ölkəsinin bayrağını müqəddəs sayan döyüşçü yadelli işğalçılara qarşı mübarizə aparır.



**İll 2. Eldar Qurbanov "Marş irəli" (2021) (kətan, yağlı boya, 110x150 sm)**

Təhminə Əli "Topxana meşəsi" ( ill 3) əsərində qədim tarixə malik olan Şuşanın nadir sərvətlərindən birini tamaşaçıların diqqətinə çatdırır. Təsviri sənətin rəng, perspektiv, işıq-kölgə metoduna sadiq qalan rəssam vətənə lirik rənglərlə nəğmə həsr etmişdir.



**İll 3. Təhminə Əli "Topxana meşəsi" (2021) (kətan, yağlı boya, 60x120 sm)**

Heykəltəraşlarımızdan Mahmud Rüstəmov "Qayıdış" ( ill 4) əsərində mərmər və bürünc materiallarını özünəməxsus formada həll etmişdir. Bir qrup insanın öz torpaqlarına qayıtması, milli ənənələrin yenidən Qarabağda yaşayacağına işarədir.




**İll 4. Mahmud Rüstəmov "Qayıdış" (2021) (mərmər, bürünc)**

Dekorativ-tətbiqi sənətdə zəfər mövzusuna diqqət ayıran rəssamlardan biri də Vəfa Əliyevadır. Qobelen üzərində sülh rəmzi sayılan  göyərçinlər xarıbülbülü azad edərək, Qarabağa əbədi azadlıq gətirdilər. Günəşin işığı isə işğaldan azad edilən torpaqlarımıza yeni bir həyat gətirir. (ill 5)



**İll 5. Vəfa Əliyeva "Zəfər" (2021) (qobelen, 125x120 sm)**

**Nəticə.** Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətində Zəfər mövzusu rəng, plastika və ilmələr vasitəsilə dastana çevrilmişdir. Kompozisiyalarda güc simvolu sayılan at, sülh rəmzi hesab edilən göyərçin motivləri əsas yer tutur. Rəssamlarımız Qarabağın gözəlliklərini ustalıqla təsvir etmişdilər.

**Ədəbiyyat Siyahısı:**


1.Əliyev Z."Qarabağ müharibəsi təsviri sənətdə"// Ədəbiyyat qəzeti// 2016 -30 aprel //s 6
2. Quliyev Ə. "Xocalı soyqırımı təsviri sənətdə" //Mədəniyyət qəzeti// 2016-26 fevral// s 8
3.https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99s
4.https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99s